# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 31 oktyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 977 (Cild I); 2024, № 1, maddə 80, № 10, maddə 1159) ilə təsdiq edilmiş "Peşə təhsili üzrə ixtisasların Təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. "II. "İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə" peşə istiqaməti üzrə" hissədə:

1.1. "030204 Kommersiya" ixtisas qrupuna "Tədbirlərin təşkilatçısı" ixtisasından sonra "Tədbirlərin planlaşdırılması və təşkili", "Satış və marketinq" və "Satınalmaların təşkili" ixtisasları əlavə edilsin;

1.2. "030214 Avtomatlaşdırılmış texnologiyalar və istehsal" ixtisas qrupuna "Robototexnika" ixtisasından sonra "Mexatronika" və "İstehsalata rəqəmsal nəzarət sistemləri" ixtisasları əlavə edilsin;

1.3. "030219 İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti" ixtisas qrupuna "Veb proqram tərtibatçısı" ixtisasından sonra "Rəqəmsal məzmun idarəçiliyi" və "3D rəqəmsal oyun dizayneri" ixtisasları əlavə edilsin.

2. "III. "Kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı" peşə istiqaməti üzrə" hissənin "030301 Bitkiçilik" ixtisas qrupuna "Aqronomluq" ixtisasından sonra "Bitki mühafizəsi və

fumiqasiya işləri üzrə texnik” ixtisası əlavə edilsin.

3. “IV. “Energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları” peşə istiqaməti üzrə” hissənin “030433 Geomatika” ixtisas qrupuna “Kartoqrafiya üzrə mütəxəssis” ixtisasından sonra “Geodeziya və kartoqrafiya” ixtisası əlavə edilsin.

4. “VIII. “İlkin tələbat və qida məhsullarının texnologiyası” peşə istiqaməti üzrə” hissənin “030811 Bitki və marqarin yağı istehsalı” ixtisas qrupuna “Yağ özüllərinin tamperasiyaçısı” ixtisasından sonra “Qida emalı texnologiyaları” ixtisası əlavə edilsin.

5. “IX. “İnşaat və arxitektura” peşə istiqaməti üzrə” hissədə:

5.1. “030908 Ümumi inşaat işləri” ixtisas qrupuna “Quru inşaat işləri ustası” ixtisasından sonra “Rəqəmsal inşaat üzrə mütəxəssis” ixtisası əlavə edilsin;

5.2. “030918 Elektrik avadanlıqları və elektrik şəbəkələrinin elektroquraşdırılması” ixtisas qrupuna “Elektroquraşdırıcı-sazlayıcı” ixtisasından sonra “Elektrik sayğacları texniki” ixtisası əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 30 ” “ iyun ” 2026-cı il

№ 202